## Oruç Dadaşi Elman

### Yaranıbsan

Canan yazılıb, can gözəlindən yaranıbsan
Canlar canının tək öz əlindən yaranıbsan

Doqquz fələyin şanlı mədarında düzülmüş
Ay - gün kimi eşqin təməlindən yaranıbsan

Canlarda yaşıl vergi təkin doğru məhəbbət
Aydın baxışın düz əməlindən yaranıbsan

Bir damcı sayaq, ruh dənizindən cama dolmuş
Can badələnib, mey özəlindən yaranıbsan

Bir kəlmə yaşıllıq sözü urmanlara sığmış
Tək ağ boyanın lap əzəlinden yaranıbsan

Varlıq ürəyın, qoşmaların mahnısı tutmuş
Şeirin ürəyi, var qəzəlindən yaranıbsan

Dağlar dumanın gizlədə bilsə, heç ucalmaz
Dağlar yükü dağdır məsəlindən yaranıbsan

Gizlində göyərçin ayağından xəbərim var
*Elman* sevəli, türkün elindən yaranıbsan